**Kazus**

Ərizəçi 2015-cı ilin oktyabrında tutuldu və banditizm ittihamı ilə həbsə alındı. Onun həbsdə saxlanılma müddəti sonradan bir neçə dəfə uzadıldı və belə əsas gətirildi ki, o, ədalət mühakiməsindən yayına və ya istintaqa mane ola bilər, habelə əlavə istintaq tədbirlərinin həyata keçirilməsi zəruridir və işin icraatı hələ davam edir. Ərizəçinin girov müqabilində azad edilməsinə də icazə verilmədi və belə əsas gətirildi ki, o, daxili qanunvericiliyə əsasən "xüsusilə ağır cinayət" kimi tövsif olunan cinayətdə təqsirləndirilir və buna görə də Cinayət Prosessual Məcəlləsinin müvafiq maddəsi girov müqabilində azad edilmənin ona tətbiqini qadağan edir, yalnız "böyük ictimai təhlükə törətməyən və ya az ağır, habelə ehtiyatsızlıq üzündən ağır" cinayət törətməkdə təqsirləndirilən şəxslər bu yolla azad edilə bilərlər. Son nəticədə ərizəçi 2016-cı ilin dekabrında ona qarşı ittihamlar xitam edildikdən sonra azad edildi.

Ərizəçi Konvensiyanın 5-ci maddəsi üzrə hüquqlarının pozulduğunu iddia edir.

1. Konvensiyanın 5-ci maddəsi hazırki işdə tətbiq edilə bilərmi?

2. Tətbiq edilə bilərsə, hansı bəndi?

Fikrinizi əsaslandırın.

CPM-in müvafiq bəndi

164.1. Girov qismində qətimkan tədbiri böyük ictimai təhlükə törətməyən və ya az ağır, habelə ehtiyatsızlıq üzündən ağır cinayətləri törətməkdə ittiham olunan şəxsin həbsdən azad edilməsi, lakin onun cinayət prosesini həyata keçirən orqanın sərəncamında qalmasını təmin etmək məqsədi ilə məhkəmə tərəfindən müəyyən edilmiş pul məbləğini (qiymətli kağız) və ya digər qiymətli əşyaları dövlət bankında məhkəmənin depozitinə qoymaqdan ibarətdir. Məhkəmənin qərarı ilə girov qismində daşınmaz əmlak da qəbul edilə bilər.

*Hazırladı: Günel Sevdimalıyeva*